| | Sənədin №: LEG-SL-PY/003 | Tarix: 10.02.2026 | Təftiş №00/Təftiş tarixi:- |
|---|---|---|---|
| | Document №: LEG-SL-PY/003 | Date: 10.02.2026 | Revision № Date : - |

# "Simurq Liseyi" Təhsil Kompleksi MMC

# Zorakılığa (Bullinq) qarşı Məktəb Siyasəti

**Məqsəd və Tətbiq Sahəsi**

Zorakılığa Qarşı Siyasətin məqsədi özəl məktəbimiz daxilində məktəb icmasının bütün üzvlərinin hörmət və ləyaqətlə qarşılandığı təhlükəsiz və inklüziv bir mühit yaratmaqdır. Siyasətin məqsədi zorakılıq davranışlarının qarşısını almaq və onları aradan qaldırmaq, həmçinin mehribanlıq, anlayış və empatiya mədəniyyətini formalaşdırmaqdır. Bu siyasət məktəb icmasının bütün üzvlərinə — şagirdlərə, müəllimlərə, işçi heyətinə, valideynlərə və ziyarətçilərə — şamil olunur. O, şifahi, fiziki, sosial və onlayn zorakılıq da daxil olmaqla bütün növ zorakılıq formalarını əhatə edir.

**Siyasət Bəyanatı**

Simurq Liseyi işçilər və şagirdlər üçün dəstəkləyici, mehriban və təhlükəsiz mühit təmin etmək prinsiplərinə sadiqdir. Zorakılığın və ya istənilən formada təzyiqin heç bir növünə dözülməyəcəkdir. Bütün şagirdlər, zorakılığa və ya təzyiqə məruz qaldıqları və ya başqalarının bu vəziyyətlə qarşılaşdığını bildikləri halda, dərhal müəllim heyətinə və ya məktəb rəhbərliyinə məlumat verməyə təşviq edilirlər. Bu, sosial şəbəkələr və ya mobil telefonlar vasitəsilə baş verən zorakılığı da əhatə edir.
Məktəb olaraq biz şagirdlər arasında müsbət davranışları təşviq edən və zorakılığın qarşısını alan tədbirlər görmək öhdəliyimizi qəbul edirik. Bu, Simurq Liseyi tədris binalarından kənarda baş verən hallar — məsələn, məktəb səfərləri zamanı da keçərlidir.

**Tərifi:**

Zorakılıq nədir?

Zorakılıq — bir fərdin və ya qrupun başqa bir fərdi və ya qrupu qəsdən, fiziki və ya emosional şəkildə incitdiyi təkrarlanan davranışlardır.

Zorakılığa Qarşı Alyans bəyan edir ki, zorakılıq əsasən iki kateqoriyaya bölünür:

- Emosional zərərverici davranışlar – məsxərəyə qoymaq, zərərli şayiələr yaymaq, qrupdan kənarlaşdırmaq və s.
- Fiziki zərərverici davranışlar – təpik, yumruq, itələmə və ya digər fiziki zorakılıq formaları.

***Kiber-zorakılıq***

Kiber-zorakılıq — bir fərdin və ya qrupun digərinə qarşı elektron vasitələrlə (mobil telefon, internet və s.) təkrar-təkrar yönəltdiyi aqressiv və qəsdən zərərverici hərəkətlərdir.

***Sıxışdırma (təzyiq göstərmə) nədir?***

Sıxışdırma — yaş, əlillik, milliyyət, irq, din, cins, cinsi orientasiya və ya digər şəxsi xüsusiyyətlərlə bağlı olan, qarşı tərəf üçün arzuolunmaz, əsassız və ya təhqiramiz olan, fərdin və ya qrupun ləyaqətinə təsir edən davranış formasıdır.

Zorakılıq / təzyiq bu kimi fərqli formalarda təzahür edə bilər:

- arzuolunmaz fiziki və ya şifahi təhriklər
- fiziki və ya şifahi təhqir
- Mətn, e-poçt və ya internet üzərindən kiberzorakılıq (təhqiredici mesaj və s.)
- ədalətsiz rəftar və qərəzli münasibət
- uyğun olmayan zarafatlar
- utandırıcı, hədələyici, qorxuducu ifadələrdən istfifadə

- aqressiv davranış
- uyğun olmayan jest və işarələr
- təhqiredici geyim və ya döş nişanı
- təhqiramiz şəkillər
- qeyri-etik ekran qoruyucu və ya ekran şəkilləri

**Monitorinq**

1. Mütəmadi Nəzarət:

- Zorakılığa qarşı tədbirlərin effektivliyini qiymətləndirmək üçün dövri monitorinq aparılacaq.
- Məktəb rəhbərliyi hadisə hesabatlarını, müdaxilə nəticələrini və məktəb icmasından alınan rəy və təklifləri nəzərdən keçirəcək.

2. Davamlı Təkmilləşmə:

- Monitorinq nəticələri əsasında siyasət və qabaqlayıcı tədbirlər mütəmadi yenilənəcək.
- İşçi heyət və şagirdlər üçün davamlı təlimlər müəyyən edilmiş ehtiyaclara əsasən tənzimlənəcək.

Bu Zorakılığa Qarşı Siyasətə əməl etməklə və effektiv monitorinq mexanizmlərini tətbiq etməklə Simurq Liseyi, icmanın bütün üzvlərinin akademik və emosional baxımdan təhlükəsiz və dəstəkləyici mühitdə inkişaf etməsini təmin etməyi qarşısına məqsəd qoyur.

**Məsuliyyət:**

Simurq Liseyinin bütün üzvləri məktəbdə zorakılıq və ya təzyiq hallarının qarşısının alınmasına məsuldurlar.
Məktəb zorakılıqla bağlı hər bir məlumatı ciddi şəkildə araşdıracaq və müvafiq vasitəçilik, dəstək və intizam tədbirlərini həyata keçirəcək.
Təzyiq və ya zorakılıq hadisələri intizam prosedurlarının bir hissəsi olaraq qeydə alınacaq və məktəb rəhbərliyinə təqdim olunacaq.

**Təzyiq və ya Zorakılıq İddiaları:**

Zorakılıq və təzyiq halları zarafat və ya kiçik atmacalardan tutmuş, ciddi zorakılıq və psixoloji təhdidlərə qədər müxtəlif səviyyələrdə ola bilər.
Ona görə də, cavab tədbirlərinin səviyyəsi hadisənin ağırlığına uyğun seçilməlidir.

Rəsmi olmayan üsullar çox vaxt problemi tez və dostyana şəkildə həll edə bilər və əgər hadisənin ciddiliyi bu yanaşmaya imkan verirsə, ilkin mərhələdə bu yola üstünlük verilməlidir.
Tədbirlər Simurq Liseyinin Davranış Siyasətinə uyğun şəkildə həyata keçiriləcək.

Zorakılığa məruz qalan şəxs hadisələrin tarixçəsini, şahidlərin adlarını və mümkün sübutları qeyd etməlidir. Kiber-zorakılıq hallarında bütün elektron sübutlar saxlanılmalıdır.

**Nə etmək lazımdır:**

Əgər zorakılığa və ya təzyiqə məruz qalmısınızsa, yaxud bu cür hadisəyə şahid olmusunuzsa, aşağıdakı addımları ata bilərsiniz:

**Şagirdlər üçün:**

- Həmin şəxslə danışın — bəlkə də, davranışının sizi incitdiyindən xəbərsizdir;
- Sinif rəhbərinizlə danışın;
- Direktor müavini və ya direktorla əlaqə saxlayın.

**İşçi heyət üçün:**

- Həmin şəxslə danışın;
- Birbaşa rəhbəriniz, direktor və ya digər rəhbər şəxslə danışın;
- Zərurət yarandıqda Baş İcraçı Direktor ilə əlaqə saxlayın.

**Sonrakı Addımlar:**

**Əgər zorakılıq edən şəxs şagirddirsə:**

**1) Davranışla bağlı xəbərdarlıq:**

Zorakılığa məruz qalan şəxs qarşı tərəfdən bu davranışı dayandırmağı istəməlidir və niyə bu davranışın qəbuledilməz olduğunu izah etməlidir.

Bütün əməkdaşlar və şagirdlər zorakılıq və təzyiq hallarına qarşı aşağıdakı kimi reaksiya verməlidirlər:

- Əmin olun ki, bu doğrudan da zorakılıqdır, zarafat və ya qarşılıqlı oyun deyil;
- Qarşı tərəfə davranışının qəbuledilməz olduğunu açıq şəkildə bildirin;
- Zərərçəkənə dəstək verin.

Əgər şagird özünü müdafiə etmək üçün kifayət qədər inamlı deyilsə, o, uyğun bir müəllimə (sinif rəhbəri, fənn müəllimi və ya məktəb rəhbərliyinə) müraciət etməlidir.

Əgər xəbərdarlıqdan sonra da zorakılıq davam edirsə, məsələ qeyri-rəsmi və ya rəsmi prosedurlarla həll ediləcək.

**2) Vasitəçilik (mediasiya):**

Əgər zorakılıq baş verib və zərərçəkən şəxs qarşı tərəflə birbaşa danışmaq istəmir və ya bu nəticə verməyibsə, sinif rəhbəri və ya digər işçi vasitəsilə məsələ müzakirə edilə bilər.

Tərəflərin iştirakı ilə üçüncü şəxs (məsələn, direktor müavini) vasitəçiliyi ilə görüş təşkil oluna bilər. Məqsəd problemi müəyyənləşdirmək və razılaşdırılmış həll tapmaqdır.

Simurq Liseyi adətən rəsmi prosedura keçməzdən əvvəl vasitəçiliyi təşviq edir.

**3) Əgər vasitəçilik istənilmirsə, rədd edilirsə və ya nəticə vermirsə:**

Bu halda məsələ dərhal **Simurq Liseyi Davranış Siyasəti** üzrə 3-cü səviyyə intizam tədbirləri çərçivəsində həll ediləcək.

**Əgər zorakılıq edən şəxs əməkdaşdırsa:**

Bu halda şagird məsələ ilə bağlı digər uyğun əməkdaşdan kömək istəməlidir. Hadisə barədə ilkin danışıqdan sonra həmin işçi vəziyyəti dəyərləndirəcək və tədbir görülməsinin məqsədəuyğunluğuna qərar verəcək.

**Əlaqəli Sənədlər:**

- Uşaqların Müdafiəsi Siyasəti
- Davranış Siyasəti
- Təhlükəsizlik və Qoruma Siyasəti
- Şagird Bələdçisi

**Əgər zorakılığa və ya təzyiqə məruz qaldığınızı hesab edirsinizsə:**

- Cavab verməyə və ya əvəz çıxmağa çalışmayın.
- Əgər təhlükə altındasınızsa, hadisə yerindən uzaqlaşın və dərhal ən yaxın müəllimə və ya təhlükəsizlik əməkdaşına müraciət edin.
- Əgər vəziyyəti təkbaşına həll edə bilmirsinizsə, bir əməkdaşla danışın — o, sizə ən uyğun addımı müəyyənləşdirməkdə kömək edəcək.

**Əgər zorakılıq və ya təzyiq hadisəsinə şahid olmusunuzsa:**

Unutmayın ki, zorakılıq və digər antisosial davranışlara qarşı ən güclü müdafiəmiz bir-birimizə olan qarşılıqlı hörmətdir.

**"Simurq Liseyi" Təhsil Kompleksi MMC-nin Baş İcraçı Direktoru**

**Tural Abasquliyev**

**İmza**

AZƏRBAYCAN RESPUBLİKASI "SİMURQ LİSEYİ TƏHSİL KOMPLEKSİ" Məhdud Məsuliyyətli Cəmiyyəti AZERBAIJAN REPUBLIC